

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 249 (21.401)

*18 dekabr 2015-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə torpaqlardan istifadənin səmərəliliyinin artırılması, əkinə yararlı torpaq sahələrinin genişləndirilməsi və suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi sahəsində irimiqyaslı layihələr həyata keçirilməkdədir.

Taxtakörpü və Şəmkirçay su anbarlarının istismara verilməsi nəticəsində ilkin mərhələdə 10 min hektar əkin sahəsi suvarma suyu ilə təmin edilmiş, 198 min hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və 42 min hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsaitlər hesabına 2013-2015-ci illərdə əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 35 şəhər və rayon üzrə əhalisi 1,1 milyon nəfərə yaxın olan 458 yaşayış məntəqəsində 657 subartezian quyusu qazılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini və vətəndaşların müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Əhalisi 400 min nəfərə yaxın olan 40 şəhər və rayonun 148 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 10,0 (on) milyon manat, Naxçıvan Muxtar Respublikasının ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının qazılması məqsədi ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri,15 dekabr 2015-ci il*

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası 2015-ci il dekabr ayının 22-də saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsinin təsdiq edilməsi
4. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı
5. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**
*Naxçıvan şəhəri, 17 dekabr 2015-ci il*

## Naxçıvan şəhərində Şərq hamamı istifadəyə verilmişdir





Naxçıvan qədim şəhər mədəniyyətinə malikdir. Bu mədəniyyətin izləri qədim tikililərdə və tarixi abidələrdə yaşayır. Vaxtilə Naxçıvan şəhərində inşa olunan zəngin tərtibatlı hamamlar bu gün tarixi-memarlıq abidələri kimi mədəniyyətimizin nadir inciləri sırasına daxil olmuşdur. Bu gün də Naxçıvan şəhərində ictimai mədəni xidmət obyektlərinin inşasına xüsusi diqqət yetirilir.

Bu sahədə görülən işlərin davamı olaraq dekabrın 17-də Naxçıvan şəhərinin Əlincə məhəlləsində Şərq hamamı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a uyğun olaraq Naxçıvan şəhərində yeni istehsal müəssisələri yaradılmış, müasir yollar və körpülər salınmış, təhsil, səhiyyə, mədəniyyət obyektləri, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilmişdir. Həmçinin şəhərdəki tarixi abidələr memarlıq elementləri qorunub saxlanılmaqla bərpa olunmuşdur. Hazırda şəhərdə yeni parkın salınması işləri davam etdirilir. İstifadəyə verilən Şərq hamamının da bu sahədə görülən işlərin davamı olduğunu bildirən icra başçısı şəhər sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: 2014-cü ildə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə Sərəncam imzalanmış, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" qəbul olunmuşdur. Proqrama uyğun olaraq muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində quruculuq tədbirləri həyata keçirilmişdir. Bu tədbirlər içərisində vacib sahələrdən biri də yeni hamam kompleksinin tikilməsi idi.

Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı qaz, elektrik və su təminatı vardır. Hər bir ailə öz mənzilində lazımi məişət şəraiti yaratmışdır. Lakin Naxçıvanın paytaxt şəhəri olması və burada 10 minə yaxın tələbənin təhsil alması yeni mədəni xidmət obyektinin – hamam kompleksinin tikintisini zəruri edirdi. Yeni hamam kompleksi əhaliyə xidmət göstərməklə yanaşı, həm də memarlıq abidəsi kimi inşa olunmalı, Şərq adət-ənənələri və üslubu qorunub saxlanılmalı idi. Tikinti işləri aparılarkən bu amillər nəzərə alınmış, qədim Şərq adət-ənənələri və üslubuna uyğun yeni hamam kompleksi inşa olunmuşdur.

Ali Məclisin Sədri Şərq hamamında yeni işlə təmin olunanları və gələcək istifadəçiləri təbrik etmiş, kompleksin tikintisində əməyi olanlara təşəkkürünü bildirmişdir.

Baxış zamanı məlumat verilmişdir ki, Şərq hamamı özünəməxsus memarlıq quruluşu ilə diqqəti cəlb edir. Burada göstərilən xidmətlərdən saatda 100 nəfər istifadə edəcəkdir. Hamam qadınlar və kişilər üçün nəzərdə tutulan iki ayrı bölmədən ibarətdir. Həmçinin burada hamam ləvazimatlarının satışı mağazası və çay evi də fəaliyyət göstərir. Şərq hamamında 15 nəfər işlə təmin olunmuşdur.

Həyətdə hər birinin tutumu 25 ton olan 3 su çəni qoyulmuş, davamlı su təminatı yaradılmış, geniş abadlıq işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılamışdır


eurasia review news & analysis

Eurasia Review
A JOURNAL OF ANALYSIS AND NEWS

Nakhchivan Region Welcomes Azerbaijan President Ilham Aliyev – OpEd

President of Azerbaijan Ilham Aliyev arrived in the Nakhchivan Autonomous Republic. Photo Credit: Azerbaijan President's Office.

1 dekabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına işgüzar səfər etmişdir. Səfər zamanı Prezident səhiyyə, nəqliyyat, sənaye, yenilənən enerji layihələri və təmiz su təchizat infrastruktur obyektlərinin açılış mərasimində iştirak etmişdir. Azərbaycan Respublikasının Prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşayiət etmişdir. Azərbaycan Respublikasının Prezidentinə Naxçıvanın əldə etdiyi iqtisadi nailiyyətlər barədə məlumat verilmişdir. Prezident İlham Əliyev Sənaye Kompleksinin açılışında iştirak etmişdir. Yeni sənaye parkı 9 hektar ərazini əhatə edir və özündə gips, əhəng və məsaməli beton istehsal edən zavodları birləşdirir. Zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Zavodda il ərzində 150 min ton məsaməli beton istehsal olunacaqdır. Qeyd olunmalıdır ki, əhəng zavodu illik 36 min ton, gips zavodu 40 min ton, beton zavodu isə 2 milyon kvadratmetr istehsal gücünə malikdir. Azərbaycan Prezidenti zavodun istehsal sahələrini gəzmiş və qeyd etmişdir ki, bu zavod Naxçıvanın iqtisadi inkişafında mühüm rol oynayacaq, həmçinin burada işçilərə yaradılan yüksək səviyyəli iş şəraiti yalnız Azərbaycanda deyil, demək olar ki, cənub-qərbi Asiya regionunda yeganədir.

Bundan başqa, Prezident İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının "Şərq Terminalı"nın açılışında da iştirak etmişdir. Ali Məclisin Sədri Vasif Talıbov və Cahangir Əsgərov dövlət başçısına hava limanında aparılan təmir işlərindən sonra terminalın texniki göstəriciləri barədə məlumat vermişlər. Terminalda hərəkət məhdudiyyəti olan sərnişinlər üçün 2 lift avadanlığı və uzunluğu 41 metr olan baqaj konveyeri quraşdırılmışdır. Bütün bu yeniliklər hava limanının sərnişin dövriyyəsinin saatda 150-200 nəfərdən 400-450 nəfərə çatdırılmasına imkan verəcəkdir. Naxçıvan Beynəlxalq Hava Limanından Bakı, İstanbul və Moskvaya birbaşa uçuşlar həyata keçirilir. Bir müddətdən sonra Gəncə şəhərinə də birbaşa uçuşların bərpası nəzərdə tutulur.

Prezident ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində olan abidəsi önünə gül qoymuşdur. Ali Məclisin Sədri Vasif Talıbov dövlət başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat vermişdir.

Sonra Prezident İlham Əliyev Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu, Babək rayonunun Nehrəm kənd 2 saylı orta məktəbi və Naxçıvan şəhərindəki 2 saylı uşaq musiqi məktəbinin açılışında iştirak etmişdir.

Əlavə olaraq Azərbaycan Respublikasının dövlət başçısı Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışını etmişdir. Bu tibb müəssisəsi 1920-ci ildə şəhər xəstəxanası kimi fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublika Xəstəxanasının binasında tikinti işləri 1979-cu ildə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə başlamış və 1987-ci ildə tamamlanmışdır. Bu binada son əsaslı təmir işləri isə 2013-cü ildə başlamış və qısa müddət ərzində tamamlanmışdır.



Muxtar respublikaya səfərinin sonunda İlham Əliyev Naxçıvan şəhərinin su təchizatı sisteminin açılışında iştirak etmişdir. Bu münasibətlə dövlət başçısına məlumat verilmişdir ki, şəhərin su və kanalizasiya sisteminin tikintisi Asiya İnkişaf Bankı ilə Azərbaycan dövləti arasında imzalanan kredit sazişinə əsasən həyata keçirilib. Şəbəkənin tikintisi 2010-cu ildə başlayıb. Layihə çərçivəsində 224.790 metr uzunluğunda şəhərdaxili su şəbəkəsi və 219.040 metr uzunluğunda kanalizasiya xətləri çəkilmişdir.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun müşayiəti ilə Babək rayonunun Xal-xal kəndi yaxınlığında yerləşən Naxçıvan Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir. Elektrik stansiyası 35 hektar ərazini əhatə edir. 20 meqavat gücə malik stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi və Belçika Krallığının "Soltech" şirkəti arasında imzalanan müqavilə əsasında həyata keçirilmişdir. Stansiyada 78 min 684 ədəd müasir şüşə tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyaları quraşdırılıb, eləcə də tikinti işlərinin vaxtında başa çatdırılması üçün əraziyə 30-dan artıq texnika və 400 nəfərdən artıq işçi cəlb olunmuşdur. Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovat-saatdan çox enerji istehsal olunacaq. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin əməkdaşları və Belçikanın "Soltech" şirkətinin nümayəndələri ilə görüşdükdən sonra Prezident İlham Əliyev öz işgüzar səfərini bitirərək Naxçıvan Beynəlxalq Hava Limanından Bakıya yola düşmüşdür. Əlbəttə ki, bu, Prezident İlham Əliyevin 2015-ci ildə həyata keçirdiyi ən mühüm səfərlərindən biri idi.

**Peter TASE**
***09.12.2015***
***Amerika Birləşmiş Ştatlarının "Eurasia review" qəzeti***

## 1991-ci il dekabrın 16-da Naxçıvanda qəbul olunan qərar Azərbaycançılıq ideologiyasının təntənəsidir



*1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ümummilli lider Heydər Əliyevin təşəbbüsü və imzası ilə hər il dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunmasına dair qərar qəbul edib.*

Bu münasibətlə dekabrın 16-da Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı ilə birgə elmi-praktik konfrans keçirilib.

Konfransı açan Heydər Əliyev adına tam orta məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əhəmiyyətindən danışıb.

Namiq Məmmədov qeyd edib ki, 1991-ci il dekabrın 16-da ümummilli lider Heydər Əliyevin imzası ilə qəbul edilən qərar bir tərəfdən böyük liderin uzun illərdən bəri uğrunda mübarizə apardığı amalın təntənəsi idisə, digər tərəfdən müstəqilliyin bərpa olunmasından sonra bütün dünyaya səpələnmiş milyonlarla azərbaycanlını vahid ideologiya ətrafında birləşdirmək məramına xidmət edirdi.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Ümummilli lider Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" mövzusunda çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev hələ Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik edərkən respublikanın gələcək müstəqilliyini aydın görüb, özünün bütün fəaliyyətini ümummilli mənafelərin həyata keçirilməsinə həsr edib. 1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasına, 1993-cü ildən isə müstəqil Azərbaycana rəhbərlik edərkən O, Azərbaycançılıq məfkurəsini xalqımızın vahid milli ideyası kimi irəli sürüb, onu daha da inkişaf etdirərək milli ideologiyamızın nəzəri və təcrübi konsepsiyasını yaradıb, dövlətçilik ideologiyası kimi inkişaf etdirib. Yeni Azərbaycan Partiyasının proqramındakı ideoloji prinsiplər də öz mayasını məhz bu amaldan götürüb. Bu baxımdan ulu öndərin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti", əslində, milli ideologiyamızın tarixi-nəzəri konsepsiyasıdır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri vurğulayıb ki, ölkəmizin tam siyasi-iqtisadi müstəqilliyi, milli-mənəvi dəyərlərin qorunması şərti ilə ümumbəşəri dəyərlərə inteqrasiyası təmin olunub, müstəqil, müasir, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu uğurla aparılıb. Sosial ahəngdarlığın və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edən sosial dövlətçilik və sosial ədalət təmin edilib. Bütün bunlar milli ideologiyamızın və inkişaf strategiyamızın başlıca prinsiplərini təşkil edir. Hazırda milli ideologiya bütün prinsiplər üzrə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı konfransın məhz dekabrın 16-da keçirilməsi Azərbaycan xalqını vahid bayraq altında, Azərbaycançılıq ideologiyası ətrafında birləşdirən ulu öndər Heydər Əliyevin xatirəsinə dərin hörmətin növbəti ifadəsidir.

Heydər Əliyev adına tam orta məktəbin müəllimi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Könül Mirzəyeva "Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda çıxışında qeyd edib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Sərəncamı ilə ilk dəfə olaraq 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Məhz bundan sonra dünyanın siyasi xəritəsi üzrə səpələnmiş milyonlarla azərbaycanlı təşkilatlanmağa başlayıb, vahid Azərbaycançılıq ideyası və müstəqil dövlətimizin bayrağı altında birləşərək ümummilli həmrəylik ideyası uğrunda səfərbər olub.

Heydər Əliyev adına tam orta məktəbin tarix müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi Şəfiqə Əhmədova "Dövlətçiliyimiz möhkəm təməllərə əsaslanır" mövzusundakı çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, müstəqil dövlət quruculuğu prosesi başlanıb. Milli ordu formalaşdırılıb, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılıb. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son on ildə sürətlə inkişaf edərək regionun lider dövlətinə çevrilib. Hazırda ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələr respublikamızın beynəlxalq aləmdə nüfuzunu daha da artırmaqdadır.

Konfransın sonunda tədbir iştirakçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmə və rəsm sərgisinə baxıblar.

**✍ Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə tədbir keçirib.*

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə tədbir keçirilib



Tədbiri giriş sözü ilə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası komandirinin tərbiyəvi işlər üzrə müavini, polkovnik-leytenant Şahin Bəylərov açaraq geniş məruzə ilə çıxış edib.

Qeyd olunub ki, Kəngərlilər nəslinin görkəmli nümayəndələrindən olan Cəmşid Naxçıvanski bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməyib, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qoruyub, həyatının məqsədini vətənə xidmətdə görüb. O, bu yolda bütün çətinliklərə sinə gərib, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərib. Ona görə də Azərbaycanın bu görkəmli oğlunun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir.

Vurğulanıb ki, "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 aprel tarixli və "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli sərəncamları görkəmli generalın fəaliyyətinə verilən yüksək qiymətin ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək Kəngərlilər nəslinin Azərbaycan hərb tarixindəki rolundan danışıb, Kəngərli generallarının keçdiyi ömür yolu barədə məlumat verib.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının sədri Mirməcid Seyidov "Gənclərə vətənpərvərlik hislərinin aşılanması" mövzusunda çıxış edib.

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası komandirinin tərbiyəvi işlər üzrə müavini, polkovnik-leytenant Şahin Bəylərov tədbirə yekun vurub.

Sonda əsgər və zabitlər Naxçıvan televiziyasının hazırladığı "Sərkərdə" sənədli filminə baxıblar.

**Xəbərlər şöbəsi**

*18 dekabr Beynəlxalq Miqrant Günüdür*

# Muxtar respublikada miqrasiya xidməti günün tələbləri səviyyəsində qurulmuşdur

***Hər il dekabrın 18-i bütün dünyada "Beynəlxalq Miqrant Günü" kimi qeyd olunur.***

Miqrasiya müxtəlif səbəblərdən insanların bir yerdən başqa yerə köçərək daimi və müvəqqəti olaraq öz yaşayış yerini dəyişməsidir. İctimai proses olan miqrasiya hərəkatı həmçinin iqtisadi, siyasi və mənəvi amillərin təsiri nəticəsində də baş verə bilər. Müasir dövrümüzdə miqrasiya ictimai proseslərdə mühüm faktora çevrilmişdir. Dünya dövlətləri miqrasiya məsələlərinin beynəlxalq hüquq normaları ilə tənzimlənməsi və miqrantların hüquqlarının qorunması istiqamətində sıx əməkdaşlığa üstünlük verirlər. Bu gün ölkəmizdə Beynəlxalq Miqrant Gününün qeyd olunması da dövlətin miqrasiya proseslərini tolerantlıq zəminində, milli və irqi ayrı-seçkilik olmadan tənzimlənməsində maraqlı olduğunu təzahür etdirir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra miqrasiya proseslərinin həm müsbət, həm də mənfi halları ilə üzləşmişdir. Belə ki, Ermənistanın ölkəmizə qarşı işğalçı və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız öz doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir. Bu səbəbdən də Azərbaycan ərazisində daxili miqrant məskunlaşmış ölkəyə çevrilmişdir. Digər bir tərəfdən həmin dövrdə əmək miqrasiyası Azərbaycan vətəndaşlarının xarici ölkələrə axını ilə xarakterizə olunurdu. Lakin ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkədə təmin olunan siyasi sabitlik və sosial-iqtisadi inkişaf xaricə miqrasiya axınının qarşısını aldı, vaxtilə ölkəni tərk etmiş şəxslərin geri qayıdışı üçün zəruri şərait yarandı. Ümummilli liderimiz müxtəlif səbəblərdən miqrasiya etmiş ölkə vətəndaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasını, onların üzləşdiyi problemlərin həllini daim diqqət mərkəzində saxlamışdır.

Bu sahədə dövlət siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də həm xarici, həm də daxili miqrasiyanın mənfi təzahürlərinin aradan qaldırılması istiqamətində səmərəli və məqsədyönlü tədbirlər görür. Ölkə başçısı xüsusilə urbanizasiya prosesinin qarşısının alınmasını mühüm prioritetlərdən biri kimi müəyyənləşdirmişdir. Bu gün sosial ədalət prinsipinin qorunması baxımından ölkəmizin hər bir bölgəsinin tarazlı inkişafına diqqət yetirilir.



Ölkəmizdə miqrasiya sahəsində mükəmməl qanunvericilik bazası formalaşdırılmış və insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərin müddəalarının tətbiqi üçün lazımi siyasi-hüquqi baza yaradılmışdır. Bundan başqa, Azərbaycanda Miqrasiya Məcəlləsi hazırlanaraq qəbul edilmişdir. Bu məcəllə ölkə ərazisində miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir. Bu gün Azərbaycana gələn hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qəbulu və qeydiyyatının aparılması daha da sadələşdirilmişdir. Bütün bunlar ölkəmizdə insan hüquqlarına verilən dəyərin nümunəsidir.

Mövcud sabitlik və sosial-iqtisadi inkişaf son illər Naxçıvan Muxtar Respublikasına miqrasiya axınlarını daha da sürətləndirmişdir. İctimai həyatın bütün sahələrində olan inkişaf, ölkəmizin dünya mədəniyyətinə və iqtisadiyyatına inteqrasiyası Azərbaycan Respublikasının mənşə ölkəsindən daha çox təyinat ölkəsinə çevrilməsinə şərait yaratmışdır. Uğurla həyata keçirilən islahatlar nəticəsində davamlı miqrant axınının milli maraqlar çərçivəsində tənzimlənməsi və daxili əmək bazarının qanunsuz miqrantlardan qorunması təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Naxçıvan uzun illərdir, blokada şəraitində yaşayır. Ona görə də muxtar respublikaya miqrantların gəlməsi təəccüblü görünə bilər. Lakin bugünkü reallıq ondan ibarətdir ki, Azərbaycanın iqtisadi inkişafı fonunda inkişaf edən Naxçıvan Muxtar Respublikasına qonşu ölkələrdən gələn miqrantların sayı ilbəil artır. Bu da Naxçıvanda miqrasiya tədbirlərinin həyata keçirilməsini zəruri etmişdir".***

Miqrasiya proseslərinin dünya standartları səviyyəsində tənzimlənməsi, ölkəyə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının tam şəkildə müdafiəsi istiqamətində görülən tədbirlər muxtar respublikada ölkə vətəndaşları ilə yanaşı, miqrantların da sosial rifahının yaxşılaşmasının bariz nümunəsidir. Aparılan analitik təhlil və statistik məlumatlar göstərir ki, 2015-ci ilin ötən dövründə muxtar respublikada 11 min 291 əcnəbi olduğu yer üzrə qeydiyyata alınmış, 617 əcnəbiyə müvəqqəti yaşamaq, 140 əcnəbiyə isə haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilmişdir.

Naxçıvan Muxtar Respublikasında bütün miqrantların hüquq və azadlıqlarının qorunması və təminatına daim diqqətlə yanaşılmış və bu istiqamətdə görülən işlər müasir standartlar səviyyəsinə çatdırılmışdır. Bu gün muxtar respublikada əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün əlverişli qeydiyyat şəraiti yaradılmışdır. Ölkəmizdə miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində qeydiyyatın sadələşdirilmiş formada aparılması ilk dəfə Naxçıvan Muxtar Respublikasında tətbiq olunmuşdur. Hazırda məntəqələrdə bu sahədə uçot işi Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə aparılır. Miqrasiya sahəsində vətəndaşlara göstərilən xidmətin operativliyinin təmin olunması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya qanunvericiliyi sahəsində hüquqi məlumatlar əldə etməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi yaradılmışdır. Saytın Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərməsi əcnəbilərin rahatlıqla istifadə etməsinə imkan verir. Eyni zamanda sayt vasitəsilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində yaşaması ilə bağlı elektron müraciətların qəbulu və operativ cavablandırılması işləri intensiv şəkildə həyata keçirilir.

Miqrasiya siyasətinin həyata keçirilməsində əsas məsələlərdən biri də ölkəmizdə yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsinin təmin edilməsidir. Bu məsələnin əhəmiyyəti nəzərə alınaraq muxtar respublikada müvəqqəti yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər üçün müxtəlif maarifləndirici tədbirlərin təşkil olunması əsas fəaliyyət istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlanılır. Dövlət Miqrasiya Xidməti əməkdaşları tərəfindən muxtar respublikada yaşayan əcnəbilərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilir. Bundan başqa, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti yaşama icazəsinin verilməsi halları və qanunsuz miqrasiya ilə bağlı bir neçə maarifləndirmə xarakterli qısametrajlı videoçarx və slayd hazırlanaraq Naxçıvan dövlət televiziyasında nümayiş etdirilmiş və xidmətin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

*Muxtar respublikada miqrasiya xidməti əməkdaşlarının səmərəli fəaliyyəti üçün bütün imkanlar yaradılmış, bu il Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yeni inzibati binası istifadəyə verilmişdir. Binada yaradılan müasir şərait və güclü maddi-texniki baza xidmətin nümunəvi təşkilinə imkan verir. Kollektiv yaradılan şəraitdən istifadə edərək insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və qeyri-qanuni miqrasiya ilə mübarizə tədbirlərini bundan sonra da daim diqqət mərkəzində saxlayacaqdır.*

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti**

# Muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafı diqqət mərkəzindədir

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazası gücləndirilmiş, dəmir yolu nəqliyyatı sistemi müasir tələblər səviyyəsində qurulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı"nın icrası da bu sahənin hərtərəfli inkişafını təmin etmişdir. Proqrama uyğun olaraq muxtar respublikanın dəmir yolu nəqliyyatı sisteminin inkişafı, yol infrastrukturunun genişləndirilməsi və xidmətin səviyyəsinin yüksəldilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.***

Proqramda nəzərdə tutulan daşınma təsərrüfatı üzrə tədbirlər uğurla yerinə yetirilmişdir. Belə ki, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası 2012-ci ildə yenidən qurularaq istifadəyə verilmiş, binada müasir iş şəraiti yaradılmış və maddi-texniki baza möhkəmləndirilmişdir. Daşımaların səmərəli təşkili məqsədilə Vəlidağ stansiyasında yükləmə, Qarabörk stansiyasında isə yükboşaltma meydançaları yaradılmışdır. Bu sahədə görülən işlər çərçivəsində Culfa stansiyasında "Naxçıvanterminalkompleks" Birliyi üçün 258 paqonometr uzunluğunda yeni dəmir yolu xətti çəkilmişdir. Naxçıvan stansiyasında isə 220 paqonometr uzunluğunda əlavə dəmir yolu xəttinin çəkilməsi "Gəmiqaya Daş Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə xammalın daşınması işini asanlaşdırmışdır.

Culfa sərhəd-keçid stansiyası ərazisində də yenidənqurma işləri vaxtında başa çatdırılmış, kontakt şəbəkələri, elektrik və rabitə sistemləri yenilənmiş, Culfa dartı yarımstansiyasının binası əsaslı təmir olunmuşdur. Ötən müddət ərzində Naxçıvan, Ordubad, Şərur və Şahtaxtı stansiyalarında yolların və elektrik mərkəzləşdirmə qurğularının texniki vəziyyəti yaxşılaşdırılmış, qatarların təhlükəsiz və maneəsiz hərəkəti təmin edilmişdir. Proqramın icrası çərçivəsində 2012-ci ildə Culfa lokomotiv deposu, Lokomotiv Briqadalarının İdarəetmə Mərkəzi, yanacaq və material anbarı binaları, 2013-cü ildə Naxçıvan yanacaq anbarının qarajı və inzibati binası, 2014-cü il dekabrın 26-da isə İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Culfa, Qarğalıq, Qıvraq və Naxçıvan dartı yarımstansiyalarında aparılan təmir işləri başa çatdırılmışdır. Ordubad dəmiryol sərnişin vağzalı binasının və idarəetmə mərkəzinin tikintisi isə hazırda davam etdirilir.

Proqramda nəzərdə tutulan icrası vacib məsələlər sırasında hərəkətin təhlükəsizliyinin təmin olunması, qatarların hərəkət sürətinin artırılması, yolların əsaslı təmiri və yenidən qurulması istiqamətində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Ötən müddətdə qarşıya qoyulan bu vəzifələrin də icrasına nail olunmuş, yol təsərrüfatı müasir tələblər səviyyəsində qurulmuş, körpü və keçidlər təmir olunmuş, yeni dəmir yolu keçidləri və istinad divarları inşa olunmuş, yuyulmaya məruz qalan ərazilərdə sahilbərkitmə işləri aparılmışdır. Yolların əsaslı təmiri və yenidən qurulması işlərinin səmərəli təşkili üçün maşın-mexanizmlərin alınıb gətirilməsi də diqqətdə saxlanılmışdır. Bəhs olunan dövrdə yeni kran qurğulu avtomobil, ekskavator və özüboşaldan yük avtomobili, eləcə də yollarda baş verən nasazlıqların aşkarlanması üçün yolölçən defektoskop aparatı alınıb istismara verilmişdir. 2011-2015-ci illər ərzində aparılan yenidənqurma və təmir işləri zamanı 20 mindən çox şpal, 5 dəst yoldəyişdirici tir yenisi ilə əvəz edilmişdir.

Bu dövrdə teplovozların istismar müddətinin artırılması və təhlükəsiz istismarının təmin edilməsi, lokomotiv və vaqon təsərrüfatının maddi-texniki bazasının və iş şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılmışdır. Bu vəzifələrin icrası məqsədilə lokomotivlərin və vaqonların əsaslı təmiri ilə əlaqədar lazımi ehtiyat hissələri alınmış, təkər cütləri təmir edilərək istismara verilmişdir. Təkər cütlərinin dəyişdirilməsi üçün xüsusi qurğu alınıb gətirilməsi də texniki xidmətin keyfiyyətini artırmışdır. Ötən müddət ərzində 2 sərnişin vaqonunun əsaslı, 8 sərnişin vaqonunun isə depo təmiri başa çatdırılmış, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldilmişdir.

İdarəetmə, rabitə və telekommunikasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması, elektrik təchizatının yaxşılaşdırılması qatarların hərəkətinin təhlükəsizliyinin təmin edilməsində mühüm amildir. Bu istiqamətdə işlərin icrası da diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan dəmir yolunun Salamməlik-Sədərək hissəsində optik lifli rabitə xətti çəkilmiş, mövcud rabitə avadanlıqları müasir texnologiyalara əsaslanan simsiz rabitə şəbəkəsinə qoşulmuşdur. Bu tədbirlərin davamı olaraq hazırda Ordubad, Culfa, Naxçıvan, Şahtaxtı və Şərur stansiyalarında elektrik mərkəzləşdirmə avadanlıqları müasirləşdirilir, rele və bloklar yenisi ilə əvəz olunur. Həyata keçirilən tədbirlər dəmir yollarında və xidməti ərazilərdə baş verə biləcək fövqəladə və qəza hallarının vaxtında aradan qaldırılmasına imkan verir.

Muxtar respublikada dəmir yolu nəqliyyatı sisteminin idarə olunması, eləcə də yenidənqurma işlərinin həyata keçirilməsi üçün ixtisaslı kadrların hazırlanmasına da xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı bu sahədə işlərin daha səmərəli təşkilinə şərait yaratmışdır. Ötən müddət ərzində sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində ardıcıl tədbirlər görülmüş, təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin tədris və təcrübə keçməsi təmin edilmişdir. Bu məqsədlə ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə tədris bazası formalaşdırılmışdır. Naxçıvan Dövlət Universitetində müvafiq ixtisas üzrə auditoriya yaradılmış və lazımi əyani dərs vəsaitləri ilə təmin olunmuşdur. Universitetin Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisası üzrə 2-ci kursu bitirmiş 9 tələbəsi müqavilə yolu ilə 105 gün müddətinə istehsalatda əmək fəaliyyətini, 5 tələbə isə istehsalat təcrübəsini uğurla başa vurmuşdur. Hazırda Naxçıvan Dövlət Texniki Kollecində Nəqliyyatda daşımaların təşkili ixtisası üzrə kadr hazırlığı həyata keçirilir. Ötən dövrdə kollecin maddi-texniki bazası gücləndirilmiş, tədrisin keyfiyyəti yaxşılaşdırılmışdır. Hazırda "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin 4 mühəndisi Naxçıvan Dövlət Universitetində, 2 əməkdaş isə Naxçıvan Dövlət Texniki Kollecində tələbələrin bu peşəyə dərindən yiyələnməsi üçün bilik və bacarıqlarını əsirgəmirlər. Bu sahədə çalışan işçilərin peşəkarlıq səviyyəsinin artırılması da diqqət mərkəzində saxlanılır. 2011-2015-ci illər ərzində 14 dəmiryolçu Naxçıvan Regional Peşə-Tədris Mərkəzində orta ixtisas peşə kursunu müvəffəqiyyətlə bitirmişdir.

*Göründüyü kimi, "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı" bu sahədə inkişafın əsas istiqamətlərini müəyyənləşdirən mühüm dövlət sənədidir. Ötən müddət ərzində proqramda icrası nəzərdə tutulan tədbirlər uğurla yerinə yetirilmiş, dəmir yolu nəqliyyatı sisteminin inkişafı təmin olunmuş və əhaliyə göstərilən xidmətin səviyyəsi daha da yüksəldilmişdir.*

**"Naxçıvan Dəmir Yolları"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti**

## Dədəmiz Qorqud demişdir:



*-Qafil başın ağrısın beyni bilər.*

* * *

*-Alp ərə qorxu vermək eyib olar.*

*-Ayıq başa, qoçaq ələ zaval gəlməz.*

* * *

*-Sayıq olan darda qalmaz.*

## "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir

*Azərbaycan Respublikası Prezidentinin 2015-ci il fevralın 20-də imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Sərəncam milli-mədəni irsi qoruyub yaşatmağa və yeni nəsillərin Azərbaycançılıq ruhunda tərbiyə olunmasına xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq olunub. Tədbirlər Planına əsasən muxtar respublikada silsilə tədbirlər keçirilir.*

Culfa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir" mövzusunda keçirilən tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynli açaraq Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə görülən işlərdən danışıb. Qeyd edib ki, 1999-cu ildə Naxçıvan şəhərində Dədə Qorqud meydanının yaradılması, həmin meydanda Dədə Qorqudun abidəsinin ucaldılması təkcə xalqımızın müdriklik rəmzi olan bu böyük ozana deyil, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsi kimi mühüm dəyərə malikdir. Elmi konfranslar, açıq dərslər, dəyirmi masalar və sair tədbirlərin təşkili də diqqət mərkəzindədir. "Naxçıvanda Dədə Qorqud" mövzusunda beynəlxalq elmi simpoziumun keçirilməsi də ən mühüm tədbirlər sırasındadır.

Tədbirdə çıxış edən rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Sədaqət Rəfiyeva, kitabxananın əməkdaşı Rübabə Mehdiyeva bildiriblər ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının tarixi keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Əsərdə vətənpərvərlik, qəhrəmanlıq, müdriklik, oğuz türklərinin dünyagörüşü, mənəvi dəyərləri, adət-ənənələri, Azərbaycan toponimləri əks olunub. Dastan dilimizin incəliklərini, tarixi hadisələri və şəxsiyyətləri, xalqımızın mədəniyyətini öyrənməkdə əvəzsiz mənbədir. "Kitabi-Dədə Qorqud" həm də dünyada dastan mədəniyyətinin zirvəsidir.

Tədbirin sonunda "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir" adlı sərgiyə baxış olub.

✍ **Sara ƏZİMOVA**

## Gənc istedadların yaradıcılıq nümunələrindən ibarət sərgi

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda məktəblilərin və gənc istedadların yaradıcılıq nümunələrindən ibarət sərgi təşkil olunub. Sərgidə muxtar respublikanın şəhər və rayonlarından 61 şagirdin 109 rəsm əsəri və əl işi sənətsevərlərə təqdim edilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva açaraq muxtar respublikada gənc istedadlara dövlət qayğısından danışıb, bu sərginin Rəssamlar Birliyinin aid təşkilatlarla birgə tədbirlər planına əsasən şəhər və rayonlarda keçilən ustad dərslərinin hesabatı olduğunu qeyd edib. Bildirilib ki, keçilən ustad dərsləri zamanı rəsm sahəsində istedadı və qabiliyyəti olan uşaq və gənclər üzə çıxarılıb, onların yaradıcılığının inkişaf etdirilməsi üçün bir sıra tədbirlər görülüb.

Ülviyyə Həmzəyeva deyib ki, bu gün sərgidə rəsm əsərləri və əl işləri nümayiş etdirilən yeniyetmə və gənclərin gələcəkdə professional rəssam olacağına böyük ümidlər var və bu ümidlərin doğrulması üçün onlara hər cür şərait yaradılıb. Əminliklə demək olar ki, çəkilən zəhmətin müqabilində gənc istedadlar daim yaradıcılıqlarını inkişaf etdirmək üçün böyük səy göstərəcəklər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimovanın, muxtar respublika təhsil nazirinin müavini Məmməd Qəribovun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayevin çıxışları olub. Çıxışlarda bildirilib ki, muxtar respublikada gənclərin vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni irsimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması istiqamətində məqsədyönlü layihələr və proqramlar həyata keçirilir.

Təşkilatçılar tərəfindən gənc istedadlara diplomlar və fəxri fərmanlar təqdim edilib, sonra tədbir iştirakçıları rəsm əsərləri və əl işləri ilə tanış olublar.

## Naxçıvanda yüngül atletika idman növü ilə bağlı seminar keçirilib





*Muxtar respublikamızda məşqçi-müəllimlər və idmançılar üçün təşkil olunan seminarlar davam etdirilir.*

Növbəti seminar dekabrın 16-17-də Gənclər və İdman, Təhsil nazirlikləri və Yüngül Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilib. Dekabrın 16-da məşqçilər üçün nəzəri seminar təşkil edilib. Seminarı giriş sözü ilə federasiyanın sədr müavini İntiqam Rəhimov açıb. O, çıxışında Naxçıvan Muxtar Respublikasında bu idman növünün geniş yayıldığını, gənclərin bu sahəyə maraq göstərdiklərini bildirib.

Sonra Azərbaycan Atletika Federasiyasından Naxçıvana gəlmiş məşqçi-müəllimlər, beynəlxalq dərəcəli lektorlar və respublika dərəcəli hakimlər Aqil Paşayev və Ceyhun Hüseynov çıxış ediblər. Hər iki lektor əvvəlcə seminarın mövzuları barədə danışıblar. Bildirilib ki, Beynəlxalq Atletika Federasiyaları Assosiasiyası atletika idman növündə kütləviliyi artırmaq üçün 2003-cü ildə assosiasiyanın konqresində uşaq atletikasının inkişafına dair rəngarəng "Kids Athletics" (Uşaq atletikası) adlı layihə təqdim edib və 2005-ci ildən bu layihənin icrasına başlanılıb.

"Kids Athletics", əsasən, 6-15 yaş arası uşaqlar üçün nəzərdə tutulub. Bu layihənin həyata keçirilməsində əsas məqsəd uşaqların idmanla məşğul olmalarını, əylənmələrini və eyni zamanda onların fiziki cəhətdən inkişafını təmin etməkdir. Buna görə də "Kids Athletics" layihəsi, əsasən, mütəhərrik oyunlar və komanda yarışları əsasında tərtib olunub. Bu layihə atletika idman növünü peşəkar atletika və uşaq atletikası olmaqla, 2 hissəyə bölüb.

Qeyd edək ki, "Kids Athletics" proqramının Azərbaycanda tətbiqinə 6-9 sentyabr 2012-ci ildə Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının layihəsi çərçivəsində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş "Kids Athletics" adlı beynəlxalq seminardan sonra başlanılıb.

Seminarın ikinci günündə məşqçilər məktəbli uşaqlarla Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində praktik məşqlər keçiblər. 6 komanda (Əlincə, Sədərək, Ordubad, Babək, Arpaçay, Batabat) və 100-ə yaxın uşaq atlet seminarda layihəyə daxil olan sədlərlə qaçış, ip atdı, top atma, vortek atma, çarpazvari tullanma və dözümlülük kimi növlərdə mübarizə aparıb.

Seminardan sonra hər iki lektorun fikirlərini öyrəndik. Aqil Paşayev ilk olaraq bu cür seminarın təşkilatçılarına minnətdarlığını bildirdi. O vurğuladı ki, seminarın ilk günündə məşqçilərə adıçəkilən layihə barədə məlumat verilib. Bildirilib ki, layihənin məqsədi atletikanı Azərbaycanda sevilən bir idman növü halına gətirmək, uşaqlarda bu növə marağı artırmaqdır. Praktik məşqlərdə uşaqların nə qədər həvəsli olduğunu diqqətə çatdıran Aqil Paşayev istedadlı uşaqların adlarını qeyd etdiklərini və növbəti aydan etibarən həftənin 3 günü bu uşaqlara məşqlər keçiriləcəyini dedi.

Ceyhun Hüseynovun sözlərinə görə, Naxçıvanda atletika və digər idman növlərinin inkişafına xüsusi diqqət göstərilir. İstifadəyə verilən və güclü maddi-texniki bazaya malik olan idman obyektləri bunun əyani sübutudur. Ceyhun Hüseynov bildirdi ki, bu dəfə "Kids Athletics" proqramının tətbiq etmək üçün öncə məşqçiləri məlumatlandırdıq. Növbəti gün isə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində praktik məşqlər keçdik. Belə seminarlar növbəti aylarda da təşkil ediləcək.

## Narkotik vasitələr və psixotrop maddələr məhv edilib

***Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası narkomaniyaya qarşı mübarizə tədbirlərini davam etdirir.***

Dekabrın 17-də Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarının məhvetmə komissiyası tərəfindən Naxçıvan Şəhər Məhkəməsinin inzibati xəta haqqında material üzrə 1 oktyabr 2015-ci il tarixli qərarı əsasında məhv edilməsi nəzərdə tutulmuş çəkisi 0,428 qram olan tiryək və çəkisi 0,012 qram olan heroin, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin cinayət işləri üzrə 19 oktyabr və 28 oktyabr 2015-ci il tarixli hökmləri əsasında məhv edilməsi nəzərdə tutulmuş 124,736 qram heroin, 22 ədəd çətənə kolu və 10 ədəd yaşıl çətənə kolunun budaqları yandırılıb. Yandırılma prosesindən öncə komissiya üzvlərinin iştirakı ilə Məhkəmə Ekspertizası Mərkəzində saxlanılan həmin narkotik maddələrin naturada üzləşdirilməsi aparılıb, bağlılığı, açılmadığı, möhürlərin yerində olduğu müəyyənləşdirilib. Sonra həmin maddələr Naxçıvan Muxtar Respublikasının Yoluxucu Xəstəliklər Mərkəzində yandırılmaqla məhv edilib.

Bundan başqa, qanunsuz əldə edilmiş müxtəlif dərman preparatları da yandırılıb.

**Xəbərlər şöbəsi**

## Muxtar respublika birinciliyinə start verilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında MMA qaydasız döyüş növü üzrə muxtar respublika birinciliyinə start verilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən birinciliyin məqsədi bu idman növünü gənclər arasında təbliğ etmək və istedadlı gəncləri üzə çıxarmaqdır. 8 çəki dərəcəsində (56, 61, 66, 70, 77, 84, 93 və 110 kq) 100-ə yaxın idmançının mübarizə apardığı birincilikdə həmin çəki dərəcələrində finala yüksələn idmançılar bu gün birinci yer uğrunda döyüşlərini keçirəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 16, mənzil 57-də yaşayan Cəfərova Tamella Yunis qızının adına olan 8686 inventar nömrəli texniki pasport və MH-0013365 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, G.Əsədov küçəsi, ev 4-də yaşayan Fərəcov Zakir Həsən oğlunun adına olan 1986 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov İsmayıl Həsən oğlunun adına Şahbuz rayonu, Şahbuzkənddə yerləşən evin 115 inventar nömrəli texniki pasportu və MH-0018599 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 951